# Abşeron memarlığı

**Abşeron rayonu ərazisində olan qəsəbə və kəndlərdə hələ XIV-XVII əsrlərə aid tarixi abidələr, məscid, ovdan və karxanalar mövcuddur.**

Xırdalanda - Məşədi İmambaxış hamamı və Hacı Həsən ovdanı (1904), Novxanıda - XVII əsrə aid Şah Sultan Hüseyn məscidi, Masazırda - XV əsrə aid "Xan bağı" türbəsi, Məmmədlidə - "Yanar dağ", XVIII əsrə aid ovdan və Ağ məscid, Qobuda - 700 il əvvəl xalçaçılıq yaranmışdır, Hökməlidə - XIX əsrə aid Əlimurad hamamı və xalçaçılıq, Fatmayıda - XVII əsrə aid Hacı Heybət məscidi, XIX əsrə aid Məhəmməd Həsən hamamı və XIX əsrə aid Əlibattı məscidi, Digahda - XVII əsrə aid Cümə məscidi və Tunc dövrünə aid Kurqan gölü, Sarayda - Köhnə Saraydakı qədim hamam binası inşa olunub qurulmuşdur.





Güzdək qəsəbəsi ərazisində XIX əsrə aid dörd ədəd "Dəvəlik" adlanan təsərrüfat tikilisi vardır. Teymur Həmidova, Məlik və Məmməd Rzayevlərə məxsus həmin tikililər təsərrüfat məqsədilə istifadə olunmasa da, qorunub saxlanılır. XIX əsrdə Görədildə həmin kəndin sakini Hacı Qurbanın tikdirdiyi Əbdürrəhman məscidi, digahlı Mir Qohum ağanın tikdirdiyi məscid, XVIII əsrdə Xırdalan kənd icması tərəfindən inşa edilmiş məscid, Məmmədlidə XVIII əsrdə qaradağlılar nəsli tərəfindən inşa edilmiş məscid, XIX əsrdə Məmmədli kəndində Şahsevənlər tərəfindən tikilmiş məscid, Novxanıda XIX əsrdə Hacı Səfəralının ibadət və dini tədris məqsədilə tikilmiş məscid-mədrəsə, Fatmayıda XVIII əsrdə tikilmiş Salam məscidi, Saray kəndindəki XIX əsrə aid Hacı Bədəl məscidi mövcuddur ki, bunların da əksəriyyəti son onillikdə bərpa olunaraq dini mərasimlərin keçirilməsinə xidmət edir.

Rayon ərazisində Orta əsrlər üçün mədəni həyat tərzinin göstəricisi olan ictimai hamamların bir neçəsi qorunub saxlanılmışdır. Qədim Abşeron kəndlərində su ilə təminatda çox mühüm rol oynamış ovdanlar Güzdək və Xırdalan yaşayış məntəqələrinin ərazisində indiyədək qalmaqdadır. Rayonun ərazisində digər tarixi abidələr, o cümlədən Fatmayıda, Digahda, Masazırda, Hökməlidə və Sarayda XIII-XVIII əsrlərə aid türbələrin qalıqları mövcuddur.

Azərbaycan.- 2023.-18 aprel.- S.10.